**AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ**

**Ə M R**

**№** 30

**Bakı şəhəri** “11” may 2017 il

**“Sümük iliyi transplantasiyasının təşkili işinin təkmilləşdirilməsi barədə”**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Səhiyyə Nazirliyi haqqında Əsasnamə”nin 14.5-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 17 noyabr tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş “İnsan orqan və (və ya) toxumalarının transplantasiyasının qaydaları və şərtləri”nə uyğun olaraq sümük iliyi transplantasiyasının təşkili işini təkmilləşdirmək məqsədilə

**ƏMR EDİRƏM**

1. “Sümük iliyi transplantasiyası üzrə Komissiya” yaradılsın və onun tərkibi təsdiq edilsin (1 nömrəli əlavə).
2. “Sümük iliyi transplantasiyası üzrə Komissiya haqqında əsasnamə” təsdiq edilsin (2 nömrəli əlavə).
3. Sümük iliyi transplantasiyasının təşkili üzrə komissiyaya tapşırılsın ki, öz fəaliyyətində bu əmrlə təsdiq edilmiş əsasnamənin tələblərini rəhbər tutsun.
4. Səhiyyənin İnformasiyalaşdırılma Mərkəzinin direktoru C.Əsədzadəyə tapşırılsın ki, sümük iliyi transplantasiyası nəzərdə tutulan xəstələrin növbəliyində obyektivliyi və şəffaflığı təmin etmək üçün elektron baza və proqram təminatı hazırlansın.
5. Əmrin icrasına nəzarət nazir müavini Nigar Əliyevaya həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**